# Ekspert Azərbaycanı regional məsələlərdə ABŞ-nin əsas tərəfdaşına çevirən amilləri göstərib

"Bu gün ABŞ Azərbaycanı regional və qlobal təhlükəsizlikdə əsas tərəfdaş kimi görür".

Beynəlxalq münasibətlər üzrə israilli ekspert Mixail Finkel bu barədə AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və Dünya" proqramının son bölümündə bildirib.

Onun sözlərinə görə, bu, həm ölkənin daxili sabitliyi, həm də balanslaşdırılmış xarici siyasəti ilə bağlıdır. Finkel Azərbaycan dövlətinin dünyəvi təbiətinin əsas rolunu, ölkə rəhbərliyinin radikalizm və fanatizmin hər hansı bir formasının qarşısını almağa yönəlmiş ardıcıl siyasətini qeyd edərək vurğulayıb ki, bu model Azərbaycanı regiondakı bir çox digər dövlətdən fərqləndirir. Ekspert həmçinin qeyd edib ki, Bakının davamlı inkişafa və sürətlə tərəqqi edən ölkələr sırasına inteqrasiyaya doğru seçdiyi kurs onu Qərb, o cümlədən ABŞ üçün etibarlı və proqnozlaşdırıla bilən tərəfdaşa çevirir. Onun fikrincə, artan beynəlxalq qeyri-sabitlik şəraitində regional təhlükəsizliyin sütunlarına çevrilən məhz belə dövlətlərdir.

M. Finkel daha sonra bildirib ki, ABŞ vitse-prezidentinin Ermənistan və Azərbaycana səfəri Vaşinqtonun Cənubi Qafqaz ölkələri ilə dialoqu möhkəmləndirməsinin vacib bir siqnalıdır. Onun sözlərinə görə, Birləşmiş Ştatların ikinci ən yüksəkvəzifəli rəsmisinin səfərinin özü yüksək etimad və hörmət səviyyəsini nümayiş etdirir.

Ekspert xatırladıb ki, ABŞ Prezidenti Donald Tramp əvvəllər Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi diqqət və hörmət nümayiş etdirib və bu, qlobal siyasəti yaxından izləyən hər kəs tərəfindən qeyd edilib.

Analitikin fikrincə, bu, yaxın gələcəkdə Azərbaycanın ABŞ və Qərblə əməkdaşlığının genişləndirilməsi üçün möhkəm təməl yaradır. Finkel vurğulayıb ki, bu cür əlaqələr uzunmüddətli siyasi etimad arxitekturasını formalaşdırır və məsuliyyətli regional tərəfdaş kimi Bakının rolunu gücləndirir.

Azərbaycan. - 2026.- 11 fevral (№ 26).- S.6.